

**Həsənov Xətai Xaliq oğlu**

Xətai Xaliq oğlu Həsənov 2001-ci il iyunun 29-da Tovuz rayonunun Qovlar şəhərində anadan olub. 2018-ci ildə Sovet Kazımov adına Qovlar şəhər tam orta məktəbin 11-ci sinifini bitirib. Bakı Biznes və Kooperasiya Kollecinə qəbul olub. Birinci kursu bitirdikdən sonra təhsilini başa vurmadan könüllü olara həqiqi hərbi xidmətə gedib.

Azərbaycan Ordusunun əsgəri olan Xətai Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Xətai Həsənov Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub. 01.11.2021-ci il tarixdə Tovuz rayonunun Qovlar şəhərində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə əsgər Həsənov Xətai Xaliq oğlu "Vətən uğrunda" medalı ilə təltif edilib.